# GAZELLI EXPERT

PEŞƏKAR SEÇİM

GAZELLI GROUP

AZERBAIJAN | EST. 1999

# AKTİV KOMPLEKSLƏR

GAZELLI GROUP

AZERBAIJAN | EST. 1999



# VITASU™ KOMPLEKSİ

Sakitləşdirici, regenerasiyaedici, iltihabəleyhinə, absorbasiyaedici və uzunmüddətli nəmləndirici təsirə malik yodlu-bromlu mineral suların stabilləşdirilmiş forması. Kompleks dəri toxumalarında mübadilə proseslərini stimullaşdırır, onun regenerasiyaedici və funksional vəziyyətini yaxşılaşdırır, kapilyar qan dövranını gücləndirir, işlək kapilyarların sayını artırır, damar tonusunu normallaşdırır, iltihabəleyhinə və absorbasiyaedici təsirə malikdir.

# YODLU-BROMLU SULARIN TƏSİRİ

Fiziki-kimyəvi tərkibi sayəsində **yod** mikrosirkulyasiya proseslərinə, damar divarlarının elastik elementlərinə, qanın reoloji xüsusiyyətlərinə, lipid mübadiləsinə birbaşa təsir göstərə bilir. Tiroksin və triiodotironin (T3) strukturuna daxil olan yod ionları orqanizmdə əsas mübadilə prosesini bərpa edir, zülal sintezini, karbohidrat və lipidlərin oksidləşməsini stimullaşdırır. Ağciyərdə iltihab ocaqlarına toplanan yod ionları dəyişiklik və eksudasiyanın qarşısını alır, bərpaedici regenerasiya proseslərini stimullaşdırır (birləşdirici toxumaların kollagen və elastik liflərini stukturlaşdırır).

**Bromun fizioloji əhəmiyyəti** mərkəzi sinir sisteminə birbaşa təsirdən ibarətdir. Bromun müalicəvi təsiri beyin qabığında inhibə proseslərinin güclənməsinə, stimullaşdırıcı və inhibitor proseslərin nisbətinin bərpasına əsaslanır. Qan dövranına daxil olan brom əzələ tonusunun, arterial təzyiqin, ürək döyüntülərinin tezliyinin azalmasına təkan verir, bədənin tam istirahət vəziyyətində olmasına gətirib çıxarır.

Yod və brom qanın ateroskleroz zamanı aşağı düşən fibrinolitik aktivliyini artıraraq, onun koaqulyasiya (laxtalanma) xüsusiyyətlərini və trombositlərin aqreqasiya qabiliyyətini azaldaraq ürək-damar sisteminə effektiv təsir göstərir. Bu isə koaqulyasiya homeostaz göstəricilərinin normallaşması ilə nəticələnir.

Miokardın morfofunksional vəziyyətinin yaxşılaşması və damarlarda morfoloji ateroskleroz əlamətlərinin azalması müşahidə edilir, bununla yod və borumun ateroskleroz əlamətlərinə xüsusi inhibə təsiri təmin edilir, vazodilatator, sidikqovucu və hipotenziv təsir əldə edilir. Bu təsirlər ümumi əhvali-ruhiyyənin yaxşılaşması, başağrının, yuxusuzluğun, ürək nahiyəsində ağrıların aradan qalxması ilə müşayiət edilir.
Sinir sistemində normal kortikal-subkortikal nisbət bərpa olunur.

İltihabəleyhinə təsir yodun vətərlərə, sümük və qığırdaq toxumasına açıq trofizmi və onların hemodinamikaya təsiri ilə bağlıdır. Bu isə özünü vazodilatasiya, qanın aktiv yenidənpaylanması və yerli qan dövranının tənzimlənməsi ilə göstərir. Qan dövranı güclənir, endokrin vəzilərin funksiyası dəyişir, autoimmun pozuntular azalır.

Yodlu-bromlu sular böyrəklərdə qan dövranını, funksional vəziyyəti yaxşılaşdırır, mübadilə prosesini normallaşdırır, bununla da iltihab proseslərinin aktivliyini azaldır. Böyrək xəstəlikləri zamanı müalicəvi effekt damargenişləndirici və sidikqovucu təsirdən irəli gəlir.

Ginekoloji xəstəliklər zamanı iltihabəleyhinə, hemostatik, ağrıkəsici, yumurtalıqların və hipofizin funksiyasını yaxşılaşdıran təsir əhəmiyyətli rol oynayır.



# VITAVOL™ KOMPLEKSİ

Gücləndirilmiş bioloji-aktiv xassələrə malik vulkanik gilin stabilləşdirilmiş forması. Tərkibində humik turşular, hormonabənzər və antibiotikəbənzər maddələrin təbii kompleksi mövcuddur. Dəri toxumalarında mübadilə prosesini stimullaşdırır, onların regenerasiyaedici xüsusiyyətlərini gücləndirir, iltihabəleyhinə, bakterisid, yarasağaldan təsirə malikdir, dəriyə kompleks təsir göstərir və onun funksiyasını yaxşılaşdırır. Dermatoloji təcrübədə bu kompleks səpkilərin, xroniki ekzemanın, iltihab təzahürlərinin və neyrodemitin müalicəsində effektiv preparat hesab edilir.

# VULKANİK GİLLƏRİN TƏSİRİ

Təpə gilləri* öz plastikliyi, yüksək istiliksaxlama və aşağısürətli istilikötürmə qabiliyyəti, bioloji aktiv maddə tərkibi sayəsində təbii kolloid mineral pelit hesab edilir.

Təpə gilləri onları duzlu sahil-dəniz göllərinin üzvi torf, sapropel və lil peloidlərindən fərqləndirən müəyyən mineral tərkib və xassələrə malikdir. Kimvəyi göstəricilərə görə onlar tərkiblərində natrium bikarbonat və natrium xlorid-sulfat ionlarının olması ilə xarakterizə olunur, bir çox hallarda yüksək miqdarda B, Br, J, Li və digər mikroelementlər ehtiva edir (V, Mo, Zn, Cu, Na, Cl, Mn, As, Se və s.).

Yüksək adsorbsiya xüsusiyyətinə malik təpə gili dəriyə dərindən nüfuz edə bilir. Bu zaman dəridə limfa və qan dövranının artması, dərinin bütün qatlarında maddələr mübadiləsinin sürətlənməsi, hüceyrə regenerasiyasının intensivləşməsi müşahidə edilir. Bunun fonunda vulkan pelitlərinin xarici istifadəsinə göstərişlər aşağıdakılardır: sinir sistemi xəstəlikləri (mononeyropatiya, polineyropatiya, onurğa beyni və beynin zədələnməsinin nəticələri), sümük-əzələ sistemi xəstəlikləri (artroz, infeksion və iltihablı artropatiya); qan dövranı sistemi xəstəlikləri — hipertenziya, ürəyin işemik xəstəliyi (əsasən, sinir və sümük-əzələ sistemində müşayiət edilən patologiyanın müalicəsi zamanı); periferik arteriya və damar xəstəlikləri; tənəffüs, həzm orqanları, sidik-cinsiyyət sistemi xəstəlikləri; dəri xəstəlikləri (dermatit və ekzema, papuloskuamoz pozuntular, övrə, dəri əlavələri xəstəlikləri, çapıqlar, keratoz və s.), qulaq xəstəlikləri, mastoidit.

Təpə gillərinin fiziki-kimyəvi xüsusiyyətləri onların palçıq müalicəsinin problemli, hətta əks-göstəriş hesab edildiyi ürək-damar və sinir sistemlərinin mənfi reaksiyalarının artması riski olan bir sıra klinik vəziyyətlərdə peloidoterpiyada istifadəsinə imkan verir. Təpə gilləri ilə prosedurlar orqanizmə daha zərif təsir göstərir, rahat tətbiq edilir, bu da onların müqaviməti zəifləmiş xəstələrdə, xəstəliklərin yarımkəskin mərhələsində, müşayiət edilən patologiyanın mövcud olması halında istifadəsinə imkan verir.

* Təpə gilləri palçıq vulkanlarından əldə edildiyi üçün onları vulkanik (və ya psevdovulkanik) gillər də adlandırırlar

# BIOMINERAL™ KOMPLEKSİ



Darıdağ (Naxçıvan Muxtar Respublikası, Azərbaycan) bulağının termal karbon-arsenli sularından əldə edilmiş duz əsasında hazırlanan, antihistamin, iltihabəleyhinə təsirə malik, faqositoz və qan dövranı prosesini gücləndirən, ağrıkəsici, stresin aradan qaldırılması xüsusiyyətinə malik, trofiki pozuntulara və toxumaların regenerasiyasına müsbət təsir göstərən gel kompleksi. Kompleks suyun təbii tərkibini maksimum dərəcədə qoruyur və gücləndirir. Kompleks hüceyrə metabolizminin pozulması zamanı güclü profilaktik və düzəldici təsir göstərir, təbii antioksidant hesab edildiyi üçün yaşlanma proseslərini zəiflədir. Dermatoloji təcrübədə, o cümlədən SPA və fizioterapiyada müalicəvi-profilaktik proqramlarda istifadəsi tövsiyə olunur.

# ARSEN TƏRKİBLİ MİNERAL SULARIN TƏSİRİ*

Darıdağ bulaqları ən məhsuldar arsenli mineral bulaqlar hesab edilir. Bu suyun qiymətli müalicəvi keyfiyyəti tərkibində kifayət qədər arsen olması ilə yanaşı bor turşusu, litium, yüksək miqdarda karbon qazı, yod, brom, dəmir və digər komponentlər ehtiva etməsindən irəli gəlir. Bu bulaqlar mineral suların nadir növünə aiddir. Bu karbon-arsen-dəmir-xlorid-bikarbonat-natriumlu suların tərkibi "Kudova" (Polşa), "Lua-Bulbul" (Fransa), "Dürkgeym" (Almaniya), "Sinqeqorsk" (Rusiya) mineral sularının tərkibi ilə eynilik təşkil edir. Müalicəvi təsir həm bioloji aktiv arsen birləşmələrinin tərkibi, həm də mineral suyun digər xüsusiyyətləri (ilk növbədə karbon qazı olmaqla tərkibindəki qazlar, ümumi minerallaşma, digər kimyəvi elementlərin — natrium, xlor, brom və s. mövcudluğu) ilə əlaqəlidir.

**Arsen** — maddələr mübadiləsində iştirak edək ən aktiv elementlərdən biridir. O, toxuma tənəffüsünün enzimatik proseslərinin sürətinə təsir edir və canlı hüceyrə üçün bioloji cəhətdən zəruri mikroelement hesab edilir.

Arsen tərkibli suların təsir mexanizmində həmçinin maddələr mübadiləsində dəyişikliklərə, toxuma tənəffüsünün yaxşılaşmasına əhəmiyyət verilir. Onların istifadəsi nəticəsində hematopoez, ürək-damar sistemi, mədə, bağırsaqlar, immun sistemin fəaliyyəti stimullaşdırılır. Adətən bu sular ürək-damar xəstəliklərindən, qan, dəri, sinir sistemi, dayaq-hərəkət aparatı, mədə-bağırsaq xəstəlikləri və bəzi endokrin xəstəliklərdən əziyyət çəkən xəstələrin müalicəsində istifadə edilir.

Müəyyən edilib ki, arsen tərkibli sular həm daxilə, həm xaricə (selikli qişalar və ya dəri vasitəsilə) istifadə zamanı stimullaşdırıcı və inhibitor proseslər arasında pozulmuş tarazlığı bərpa edir. Onlar qanın laxtalanması proseslərini normallaşdırır, qan zərdabında xolesterin və β-Lipoproteinlərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Bu isə sözügedən mineral suyun yağ və zülal mübadiləsinin sinir və neyrohumoral tənzimləməsinə təsiri sayəsində hüceyrə metabolizminə təsiretmə qabiliyyətini göstərir. Bununla yanaşı, arsen hüceyrələrin enerji potensialında dəyişiklik təmin edərək və onların müxtəlif amillərə müqavimətini artıraraq enzimatik proseslərə təsir edir.

Arsenli sual vegetativ sinir sisteminin parasimpatik hissəsinin tonusunu gücləndirərək ürək ritmini yeni optimal səviyyəyə çatdırır, bu da ürəyin fəaliyyətinə müsbət təsir göstərir.

* KARBON-ARSENLİ SULAR

# Gazelli White Oil™ (GWO)

## Ingredient

### NAFTALAN OIL EXTRACT

**Substance information**

“Extract” generally refers to a solvent extract, eg with water, alcohol or carbon dioxide.

**Function(s) of this ingredient in cosmetic products**

SKIN CONDITIONING

Maintains the skin in good condition

**Belongs to the following substance groups**

Ingredients for skincare >

*GAZELLI GROUP ilk dəfə Naftalan yağı ekstraktını (Gazelli White Oil ™) ayırmış, beynəlxalq INCI sisteminə daxil etmiş və kosmetologiya sahəsində tətbiq etmişdir.*

Təbii Naftalanın çətin, çoxmərhələli emalı nəticəsində əldə edilən şəffaf, rəngsiz ekstrakt. Konsentratın əsas kimyəvi strukturu insanın təbii hormonları ilə oxşardır. Əsas aktiv maddə (naften karbohidrogenləri) konsentratın 99%-ni təşkil edir. Dəri ilə vəhdətdə işləyərək vacib prosesləri təmin edir: maddələr mübadiləsinin artırılması, hüceyrələrin yenilənməsi, kollagen və elastin sintezinin stimullaşdırılması, mikrosirkulyasiynın artırılması, antioksidant müdafiəsi.

Yağın tərkibindəki mineral və mikroelementlərin (sink, mis və s.) qarışığı onun fizioloji aktivliyini artırır. GWO — yaşlanmaəleyhinə müalicədə yeni istiqamət. Tibdə və kosmetologiyada geniş istifadəsi mümkündür. SPA və fizioterapiyada müalicəvi-profilaktik proqramlarda istifadəsi tövsiyə olunur.

# NAFTALAN MƏHSULLARININ MÜQAYİSƏSİ



## NATİV NAFTALAN

Naften karbohidrogenləri – 50-55%
Aromatik karbohidrogenlər – 10-15%
Qatranlı maddələr – 14-15%
Bioloji əlçatanlıq – 8-10%



## TƏMİZLƏNMİŞ NAFTALAN

Naften karbohidrogenləri – 50-55%
Aromatik karbohidrogenlər – 10-15%
Qatranlı maddələr – 0,05%
Bioloji əlçatanlıq – 15-20%



## Gazelli White Oil™ (GWO)

Naften karbohidrogenləri – 99%
Aromatik karbohidrogenlər – 0%
Qatranlı maddələr – 0%
Bioloji əlçatanlıq – 80-90%

# NAFTALANTƏRKİBLİ KOMPLEKSLƏR

## SWON 40™

Gazelli White Oil™ (GWO) əsasında kompleksin qabaqcıl texnologiyası və formulu onun suda tamamilə həll olmasına imkan verir, onu vanna qəbulu və bədən maskası üçün əvəzolunmaz vasitəyə çevirir. GWO-nun bütün xüsusiyyətlərinə malikdir.

## ENTERA™ KOMPLEKSİ

Təbii yağlarla yüksəkeffektli təmizlənmiş Naftalan əsasında. ENTERA™ unikal kompleksi regenerativ prosesləri stimullaşdırır, dəri toxumalarının elastikliyini və möhkəmliyini artırır, dərini daha hamar və məxmər kimi edir. Kompleks epidermisin lipid mantiyasını bərpa edir, dərini xarici amillərin mənfi təsirlərindən qoruyur, onu dərindən qidalandırır və nəmləndirir, quruluğu, həmçinin qabıqvermənin nəticələrini, dartılma hissini, nahamarlıqları və səth qırışlarını aradan qaldırır. Relaksasiyaya səbəb olur, streslə mübarizə aparır, epidermisin immunitet və müdafiə xüsusiyyətlərini möhkəmləndirir. ENTERA™ dərinin solğunlaşması prosesini gecikdirir, yaşla əlaqədar dəyişiklik əlamətlərinə qarşı mübarizə aparır, dərinin cavanlaşmasını təmin edir, onun daha möhkəm və dartılmış görünməsini təmin edir, tonusunu artırır.

## NAFTOVIT™ KOMPLEKSİ

Təbii təmizlənmiş Naftalan, vitaminlər və bitki ekstraktlarını özündə birləşdirən biokompleks. Kompleks regenerasiyaedici, antioksidant, stimullaşdırıcı, iltihabəleyhinə, damargenişləndirici və ağrıkəsici təsir göstərir. Dərinin regenerasiyaedici xüsusiyyətini, maddələr mübadiləsini və qan dövranını yaxşılaşdırır, yarasağaldan təsirə malikdir.

# NAFTALAN



NAFTALAN...Yerin qatı qanı... Qara-qəhvəyi və ya sarı-qızılı, sanki günəş işığı ilə doludur. İnsanlar onun müalicəvi xüsusiyyətindən nə vaxt xəbər tutublar? Təbiətin Azərbaycan torpaqlarının dərinliklərində gizlənmiş bu sehrli nemətini kim kəşf edib? Tarixin köhnəlmiş səhifələri bu sualları cavabsız qoyur. Lakin Şərq nağıllarında və əfsanələrində möcüzəvi "dağ yağı" haqqında fikirlər heç də az deyil. “Naftalan” sözünün mənşəyi haqqında. Bəzi alimlərin fikirlərinə əsasən bu söz ərəbcə “dağ yağı” mənasını verən “naft” və ya “alnaft” sözündən yaranıb.

# NAFTALANIN TARİXİ



Dahi Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvi (1141-1201) "Xəmsə"yə daxil olan poemalarında ilk dəfə naftalan Naftalan şəhəri yaxınlığında yerləşən Səfikürd kəndindən karvanlar vasitəsilə daşınmasını poetik formada təsvir edir.



Daha sonra 13-cü əsrdə yaşamış məşhur səyyah Marko Polo Azərbaycandan keçərək Venesiyadan Çinə səfər edərkən öz traktatlarından naftalandan bəhs edir.

# NAFTALANIN TARİXİ

**1890-cı il**

sənaye təyinatlı naftalan hasilatı üçün 250 m dərinliyində ilk quyunun qazılması

**1898-cı il**

naftalanın dermatologiyada istifadəsi və onun müalicəvi xüsusiyyəti barədə nəticələrin əldə edilməsi

**1912-cı il**

geniş spektrdə naftalandan preparatların hazırlanması

*Həmçinin məlum faktdır ki, rus-yapon (1904-1905-ci illər), imperialist müharibələri zamanı (1914-1918-ci il) hər bir yapon və alman əsgəri Naftalan məlhəmi ilə təmin edilirdi. Həmin məlhəmdən donvurmadan qorunmaq, güllə yaralarının, yanıqların və dəri xəstəliklərinin müalicəsində istifadə etmək tövsiyə olunurdu. II Dünya müharibəsi zamanı (1941-1945-ci illər) isə Azərbaycanda və Bakı şəhərində təxliyə hospitallarında və təklif olunan "Naftomastika" güllə yaraları, travmatik artrit, yanıqlar, donvurma və s. zədələrin müalicəsində geniş şəkildə istifadə edilirdi.*

**1926-cı il**

Sovet hökumətinin aktiv şəkildə naftalan istehsalına başlaması, məlhəm istehsalı zavodunun tikilməsi

**1928-cı il**

bəzi naftalanəsaslı preparatların tədqiqinə başlanması

**2015-cı il**

Naftalan yağı ekstraktının əldə edilməsi (Gazelli White Oil ™)

Naftalanın elmi araşdırılması və istifadəsinə başlanmasından 100 ildən çox keçib. Onun bir sıra xəstəliklərin müalicəsində yüksəkeffektivliliyi ciddi sübuta yetirilib. 1896-cı ildən etibarən bu günə qədər <u>1600-dən çox elmi iş və monoqrafiya, elmlər namizədi və elmlər doktoru alimlik dərəcəsi almaq üçün 270 dissertasiya</u> dərc edilib.

# MÜALİCƏVİ XÜSUSİYYƏTLƏR

- ✓ **Desenzibilyasiyaedici xüsusiyyətlər**

Dəriyə nüfuz edərək ona birbaşa təsir göstərir — dəri kapilyarlarını genişləndirir, göynəməni azaldır, iltihablı infiltratların sorulmasını təmin edir.

- ✓ **Dezinfeksiyaedici xüsusiyyətlər**

Xüsusilə, pustulaların qurumasına təkan verir, dəri epitelinin bərpasını təmin edir.

- ✓ **Rezorbsiya və reflektor xüsusiyyətləri**

Mübadilə prosesini və enzimatik prosesi normallaşdırır, orqanizmin ürək-damar, sinir və əzələ sistemlərinə müsbət təsir göstərir. Hamar əzələlərin tonusunu azaldır, qan damarlarını genişləndirir, qanın reoloji xassələrini, lipidlərin peroksidləşməsi proseslərini yaxşılaşdırır, qanın koaqulyasiya xüsusiyyətlərini normallaşdırır və immunokorreksiyaedici təsir göstərir.

- ✓ **İltihabəleyhinə və ağrıkəsici xüsusiyyətlər**

Yüksək ağrıkəsici və iltihabəleyhinə təsirlərə malikdir. Steroid hormonlarının təbii biosintezini gücləndirir, sintezi dayandırır və iltihab vasitələrinin təsirini deaktiv edir.

- ✓ **Ağrıkəsici xüsusiyyətlər**

İltihab prosesini aradan qaldırır, sinir uclarının taktil həssaslığını azaldır, dərinin hisiyyatlılıq həddini artırır və antinosiseptiv sistemin serotinenergik mexanizmlərinə təsir edir.

- ✓ **Yerli isidici xüsusiyyətlər**

Yerli mikrosirkulyasiya proseslərini stimullaşdırır, hemolimfatik drenajı yaxşılaşdırır, maddələr mübadiləsini, diffuziya proseslərini aktivləşdirir, bununla da xəstəlik nəticəsində pozulmuş toxuma trofizminin yeni səviyyəsini yaratmağa və onlarda yerli homeostazı bərpa etməyə kömək edir.

# İSTİFADƏSİNƏ GÖSTƏRİŞLƏR

- ✓ **Oynaqların və onurğa sütununun xəstəlikləri:** revmatoid artrit, brusellyoz poliartriti, psoriatik poliartrit, radikulyar təzahürlərlə onurğanın bütün hissələrinin osteoxondrozu, spondiloz, ikinci dərəcəli deformasiya edən osteoartrit (posttravmatik), posttravmatik kontrakturalar.

- ✓ **Yumşaq toxumaların və dayaq-hərəkət aparatının oynaqdankənar xəstəlikləri:** bursit, tenosinovit, periartrit, miozit, mialgiya, miofasit/

- ✓ **Periferik sinir sisteminin xəstəlikləri:** radikulit, işias, nevralgiya, nevrit.

- ✓ **Periferik damar xəstəlikləri:** alt ekstremitələrin damarlarının aterosklerozu, obliterasiyaedici endartrit tromboflebit, varikoz damar genişlənməsi, trofik xora.

- ✓ **Dəri xəstəlikləri:** psoriaz (remissiya mərhələsi), ekzema, neyrodermit, skleroderma, ixtioz, seboreya, müxtəlif etiologiyalı dermatit.

- ✓ **Qulaq, burun, boğaz xəstəlikləri:** tonzillit, rinit, sinuzit, frontit, haymorit, otit.

- ✓ **Ginekoloji xəstəliklər:** servisit, xroniki və təkrarlanan kolpit, adneksit, salpinqo-osforit, metrit, birinci və ikincidərəcəli sonsuzluq, uterusun inkişaf etməməsi, trixomoz etiologiyalı olmayan servikal eroziya, amonoreya, yumurtalıq disfunksiyası, hipoplaziya, klimaks.

- ✓ **Xroniki qeyri-spesifik prostatit.**

- ✓ **Stomatoloji xəstəliklər:** gingivit, paradontit, paradontoz.

- ✓ **1, 2 və 3-cü dərəcəli yanıqlar.**

- ✓ **Donvurma.**

- ✓ **Babasil (daxili və xarici).**

- ✓ **Gec sağalan yaralar:** septik yara, əməliyyatsonrası yara, güllə yarası və onların ağrılaşmaları.

- ✓ **İdman tibbi və travmatologiya:** yataq yaraları, qançırlar, əzələ dartınması

- ✓ **Kosmetologiya və antisellülit metodikası.**

GAZELLI EXPERT · GAZELLI EXPERT ·

GAZELLI GROUP

AZERBAIJAN | EST. 1999